

*Bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik – döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Xalq – iqtidar birliyi zəfərin mühüm şərtidir



***Türk dünyasının ən böyük simalarından olan Mustafa Kamal Atatürk çıxışlarından birində demişdi ki, xalqın orduya və dövlətə inamı, ən çətin məqamda belə ordunun və dövlətin yanında olması göydən düşmür və ya elə-belə yaranmır: "Bunu siyasətçilərin fəaliyyəti, qətiyyəti, xalqa və dövlətə sədaqəti, ən başlıcası isə ədaləti formalaşdırır". Biz böyük paşamızın həmin arqumentinin təsdiqini son otuz ildə Azərbaycan reallıqları fonunda dəfələrlə gördük.***

Ötən ilin payızındakı Vətən müharibəsi günlərində türkiyəli jurnalist-ekspert Mustafa Dəmirçi yazırdı: "İnanmaq olmur. Xalq həmin xalqdır, ölkə həmin ölkə, dövlət həmin dövlət. Bəs nə üçün müstəqilliyin şirinliyini yenicə dadmış Azərbaycan xalqı azadlığın ilk illərində ölkə iqtidarına inanmasa da, cəmi 19 ildən sonra hamı bir nəfər kimi ordunun və Prezidentin yanındadır?"

Mustafa Dəmirçi haqlı idi. Amma onun inana bilmədiklərinin səbəblərini mən xatırlatmaq istəyirəm: Çünki azadlığın ilk illərində ölkəmizə rəhbərlik edənlər xalqın inamından istifadə edərək hakimiyyətə gəlsələr də, ölkə əhalisinin etimadını doğrulda bilmədilər. Heydər Əliyev və İlham Əliyev isə hakimiyyətdə olduqları ilk illərdəcə xalqın etimadını doğruldaraq böyük nüfuz, reytinq, inam qazandılar.

Əvvəlki rəhbərlər Gəncəyə – Azərbaycan Ordusunun üstünə öz ordumuzu göndərmişdilərsə, Heydər Əliyev güclü himayədarları olan Ermənistan ordusunun hücumlarının qarşısını böyük sərkərdəlik məharəti ilə almış, düşməni atəşkəsi imzalamağa razı salmış və möhtəşəm ordu quruculuğu prosesinə başlamışdı. Nəticə göz qabağındadır. Müstəqilliyin ilk illərindəki rəhbərlərimiz Türkiyə istisna olmaqla, bütün qonşularımızı Azərbaycanın düşməninə çevirmişdilərsə, İlham Əliev Ermənistan istisna olmaqla dünyanın bütün ölkələrini Azərbaycanın dostuna çevirdi və 44 günlük müharibədə həmin uzaqgörənliyin nələrə qadir olduğunu çox yaxşı gördük. Yəni dünyanın hər yerində ölkə rəhbərliyinin nüfuzunun azalması və ya çoxalması xalqın iradəsindən asılıdır.

Hamının yadındadır, 44 günlük müharibənin Azərbaycanın tarixi qələbəsi ilə başa çatdığını xalqa söyləyən dövlət başçımız imzalanan sənədin mənə və mahiyyətini izah etdikdən dərhal sonra demişdi ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq arenadakı nüfuzumuz və fəaliyyətimiz – bütün bunlar, ordu quruculuğu, təbii ki, qələbəmizi şərtləndirdi. Prezident xatırladır: "Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də, əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır – dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz".

Doğrudan da, müharibə günlərində bütün dünya gördü ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Dövlət başçımızın dediyi kimi, bu fakt bizim gələcəyimiz üçün çox önəmlidir. Prezident cəbhədəki uğurlar barədə danışarkən dəfələrlə deyib ki, mənim qətiyyətimi xalqın mövqeyi qat-qat artırırdı: "Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi… Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi – yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir".

Burada xüsusilə vurğulanmalı başqa bir məqam da var. Belə ki, bəzən kütləvi informasiya vasitələrində yazırlar ki, Azərbaycan xalqı öz torpaqlarını düşmən tapdağından azad etdi. Elə deyil, əziz həmkarlar! Bizim əsarətdə qalan torpaqlarımızı Azərbaycanda yaşayan bütün xalqların təmsilçiləri birlikdə azad etdilər.

Bu məsələni daim diqqət mərkəzində saxlayan və həmişə daha uca səslə söyləyən dövlət başçımız xatırladır: "Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur".

Əlavə edək ki, işğalçı ölkədə ermənilərdən başqa heç bir xalqın təmsilçisi yaşamır. Avrasiya məkanında, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya ermənilər onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndələri orada yaşaya bilmir, sıxışdırmalara dözməyərək çıxıb gedirlər. Bizim üstünlüyümüz isə çoxmillətli, çoxkonfessiyalı olmağımızdır. Bu müharibədə də bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər və əslində, müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirdi.

Dövlət başçımız ölkədə hökm sürən sabitlik və əmin-amanlıq məsələsini, az qala bütün çıxış, nitq və müsahibələrində xüsusi olaraq qabardır. O, yerli mətbuata verdiyi müsahibələrindən birində demişdir ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Bu, bizim böyük üstünlüyümüzdür. Bu, bizə imkan verir ki, Azərbaycan islahatlar yolu ilə uğurla getsin: "Bu, bizə imkan verir ki öz iqtisadi imkanlarımızdan istifadə edib, xalqımızın rifah halının yaxşılaşmasına yönəlmiş növbəti addımlar atılsın. Bu, bizə imkan verir ki, Azərbaycan xalqı bundan sonra da sülh və əmin-amanlıq şəraitində yaşasın".

Sevindirici haldır ki, ölkəmizin bu reallıqları beynəlxalq aləmdə də layiqli qiymətini alır. Məsələn, heç kəsin yadından çıxmayıb, bir müddət əvvəl dünya mətbuatında belə bir fikir yayılmışdı: "Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi top –20 ölkə arasındadır." Fikrimizi bir az da dəqiqləşdirsək, qeyd etməliyik ki, Dünya İqtisadi Forumunun "Qlobal rəqabətlilik 2017-2018" hesabatının "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyası ilə bağlı hesabatda (hesabat 2019-cu ildə mətbuat üçün açıqlanmışdı) Azərbaycanın dünyada 20-ci yerə yüksəlməsi birbaşa əhali və biznes nümayəndələri arasında aparılan sorğulara əsaslanır. Bu isə onu göstərir ki, obyektiv sorğu nəticəsində Azərbaycanda iqtidarla xalq arasında böyük etimadın olduğu təsbit edilib. Belə bir etimad isə inkişafı, ictimai-siyasi və iqtisadi sabitliyi, ən başlıcası isə cəbhədəki möhtəşəm qələbəni şərtləndirir.

Fikirlərimizi dövlət başçımızın məhz bu məzmunda olan çıxışından seçdiyimiz sitatla tamamlayırıq: "Xalq – iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır. Son prezident seçkilərində mənə göstərilən böyük etimad dediyim sözlərin məntiqi sübutudur. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə görürük. Ona görə Azərbaycanda sabitliyin möhkəmləndirilməsi hər bir vətəndaşın işi olmalıdır..."

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***